# Azad edilən torpaqlarda tezliklə həyat qaynayacaq

***Artıq qırx gündən çoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün döyüşür, 30 ildən bəri işğalda qalan torpaqlarını azad edir. Ordumuz irəliləyir, hər gün yeni kəndlərin erməni tapdağından azad edilməsi ilə bağlı xəbərlər alırıq. Dövlət başçımızın dəfələrlə bildirdiyi kimi, Türkiyə tərəfdən toqquşmaların ilk saatlarından başlayan və indiyədək davam edən siyasi dəstək münaqişənin həlli üçün mühüm əhəmiyyət kəsb edir.***



Prezident İlham Əliyev ötən müddətdə bir sıra xarici media orqanlarına müsahibələr verir, qərəzli suallar qarşısında müdriklik nümayiş etdirməklə, qətiyyətli cavablar verərək, Azərbaycanın haqlı tərəf olduğunu sübut edir. Dövlət başçımız İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibədə də yenə mövzu ilə, mövcud durumla bağlı jurnalistin təxminən eyni səpkili suallarına cavab verərkən təmkinini pozmadan, Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu, ərazi bütövlüyünü bərpa etdiyini dəlillərlə sübut etdi.

Cənab Prezident jurnalistin Azərbaycan Ordusu ilə birlikdə Ermənistana qarşı döyüşən muzdluların mövcudluğu barədə sualına, "Bu müddət ərzində, bir aydan çox vaxtda mən artıq dəfələrlə bu məsələyə diqqət çəkmişəm və demişəm ki, bu, doğru deyil", -- deyə cavab verdi və bunun münaqişənin ilk günlərində söyləndiyini, doğru məlumat olmadığını, jurnalistin Prezident Makronun bununla bağlı bəyanatına istinad etdiyini bildirdi. Həmçinin qeyd etdi ki, əvvəla, o vaxtdan sonra biz bu cür bəyanatlar eşitməmişik, ikincisi, əlavə döyüşçüyə ehtiyac yoxdur. 100 min döyüşçüsü olan ordumuza başqa dəstəyin gərək olmadığını deyən dövlət başçımız, həmçinin müasir silahlarımızın, mükəmməl texnologiyamızın və çox yüksək döyüş ruhumuzun olduğunu vurğuladı. Eyni zamanda, əlimizdə Ermənistan tərəfindən əcnəbilərin döyüşdüyünə dair kifayət qədər dəlillər olduğunu, onların öz dediklərinə görə, erməni əsilli olduqlarını bildirdi və əlavə etdi ki, "birincisi, bunun heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısının erməni olmasına dair bizdə 100 faiz dəlil yoxdur. Biz başqalarının olduğunu bilirik. Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma "Dağlıq Qarabağ ordusu"na qoşulublar. Ona görə də, əfsuslar olsun ki, bu məsələ qətiyyən müzakirə mövzusu deyil".

Dövlət başçımız, həmçinin Türkiyənin Azərbaycanın yanında olduğunu mənəvi dəstəyin çox mühüm göstəricisi kimi dəyərləndirdiyini dedi və bildirdi ki, Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan edəndə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür, biz təcavüzkar deyilik, biz başqa ölkələrə hücum etmirik.

Bu həqiqətdir ki, ermənilərin bu yalan bəyanatdan sui-istifadə etmələrinin əsas səbəbi odur ki, bizim rəqibi döyüş meydanında məğlub etdiyimizi qəbul etmək onlar üçün yəqin ki, çox ağrılıdır. Çünki, onlar 30 il ərzində özlərini elə göstəriblər ki, guya məğlubedilməz orduları var. Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər. Lakin cənab Prezidentin rəhbərliyi ilə ordumuz onlara kimin kim olduğunu sübut etdi və etməkdə davam edir. Azərbaycan Ordusu sübut etdi və edir ki, onların guya, "məğlubedilməz ordusu" əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Amma, unutmayaq ki, Paşinyanın Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş etməsi, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir.

Prezident İlham Əliyev sovet dövrünün statistikasına istinad edərək 1970-ci illərin sonunda Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlı əhalinin demək olar ki, 25 faizinin, Şuşada 98 faizinin təşkil etdiyini, bu gün isə orada bir nəfər azərbaycanlının olmadığını diqqətə çatdırdı. Xankəndidə çox sayda, Hadrut rayonunda, digər rayonlarda, ermənilərin soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlıların yaşadığını, amma onların hamısının etnik təmizləməyə məruz qaldıqlarını, qətlə yetirilib, işgəncəyə məruz qaldıqlarını və didərgin salındıqlarını təəssüflə bildirdi. Əlavə etdi ki, bu məsələdə kimsə Ermənistanı günahlandırmadı, Ermənistana qarşı hər hansı sanksiyalar tətbiq edilmədi.

Jurnalistin pozulmuş üç atəşkəslə bağlı kimin günahkar olduğu barədə sualının cavabında dövlət başçımız ardıcıllığa nəzər yetirməyi məsləhət bildi: "Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. ... Onlar gecə çox namərdcəsinə hücum etdilər, onlar bilərəkdən yaşayış yerinə hücum etdilər və bu iki hücum nəticəsində demək olar ki, 30 günahsız insan, o cümlədən uşaqlar öldürülmüşdür. İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik".

Prezident doğru olaraq vurğuladı ki, onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi.

Paşinyanın "Dağlıq Qarabağda yeni bir soyqırımı ola bilər"-- fikrinə istinad edən jurnalistin sualına cavab olaraq cənab Prezident bildirdi ki, ermənilər həmişə özlərini əziyyət çəkən, həmişə ağlayan, həmişə köməyə ehtiyacı olan insanlar kimi təqdim etmək istəyirlər. Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq.

Müsahibənin sonunda dövlət başçımız İtaliya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq məsələlərinə də toxundu və bildirdi: "Bir çox italyan şirkəti uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz podratçı qismində daha çox italyan şirkətlərini dəvət etməyi planlaşdırırıq. Yeri gəlmişkən, burada onlar neft-kimya məhsulları üzrə bir çox önəmli layihələri tamamlamışdılar və biz Prezident Mattarella ilə birlikdə açılış mərasimində iştirak etmişik. Buna görə mən əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək. Mən bundan əminəm".

Biz də əminik ki, tezliklə Azərbaycanın işğaldan azad edilmiş digər ərazilər bölgələrində də bayrağımız dalğalanacaq. Prezident İlham Əliyevin yazdığı yeni: şərəf dolu, qələbə müjdəli tarix qəlblərə sərinlik gətirəcək. Bu yeni tarixlə azad edilən torpaqlarda həyat qaynayacaq. Torpaqlarımızın işğaldan azad edilməsi yolunda qan töküb, can verən şəhidlərimizin ruhu sevinəcək. O günə az qalıb!

***Aydın HÜSEYNOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2020.- 6 noyabr.- S.4.